# Nur şəhərində bayram sevinci yaşanır

Mingəçevir bayrama hazırlaşır. Şəhər sakinləri bu bayram ovqatı ilə Səməd Vurğun adına meydana toplaşmışdılar. Meydan isə səliqə-sahmanlı idi.

Bu da bayram şənliyi. Kəndirbazların, pəhlivanların, idmançıların təqdim etdikləri müxtəlif oyunlar, Keçəlin, Kosanın məzhəkələri, Dədə Qorqudun tövsiyələri, Bahar qızın xoş arzuları toplaşanların alqışları ilə qarşılanırdı. Mingəçevir Dövlət Dram Teatrının aktyorlarının çıxışları, şəhər Uşaq Gənclər İnkişaf Mərkəzinin şagirdlərinin təqdim etdiyi rəqs və mahnılar, musiqiçilərin ifaları, şənliyə gələn uşaqların rəqsləri də şəhər sakinlərində xoş ovqat yaradırdı.

Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov çıxış edərək mingəçevirlilərə bayram təbriklərini çatdırdı. Qeyd etdi ki, yurdumuza təmizlik, saflıq, gözəllik rəmzi olan bahar bayramı qədəm qoyur: "Bu bayram münasibətilə bütün mingəçevirliləri, şəhərimizin qonaqlarını və müvəqqəti məskunlaşan məcburi köçkün bacı və qardaşlarımızı səmimi-qəlbdən təbrik edir, hamıya möhkəm cansağlığı, uzun ömür, xoş bahar ovqatı arzulayıram".

Məlumdur ki, sovet imperiyası dövründə Novruz bayramının qeyd olunmasına icazə verilmirdi. Yalnız ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra milli adət-ənənələrimiz dirçəldilməyə, Novruz bayramı dövlət səviyyəsində qeyd edilməyə başlandı. Prezident İlham Əliyev də qədim və zəngin milli adət-ənənələrimizin qorunub saxlanılması və inkişaf etdirilməsini daim diqqətdə saxlayır. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bu istiqamətdə apardığı işlər nəticəsində isə Novruz bayramı 2009-cu ildə UNESCO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş, 2010-cu ildən BMT Baş Assambleyasının qərarına əsasən, mart ayının 21-i "Beynəlxalq Novruz günü" elan edilmişdir.

44 günlük Vətən savaşında Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ordumuz 30 ilə yaxın bir dövrdə işğal altında olmuş torpaqlarımızı azad etmiş, ərazi bütövlüyümüz bərpa olunmuşdur. Bu gün Qarabağ və Şərqi Zəngəzurda abadlıq-quruculuq işləri aparılır. Yaxın vaxtlarda həmin ərazilərdə həyat bərpa olunacaq, soydaşlarımız kütləvi şəkildə yurd-yuvalarına qayıdıb Novruzu dədə-baba ocaqlarında qeyd edəcəklər.









Bütün bu uğurların fonunda Mingəçevir də inkişaf edir. Son illər şəhərdə abadlıq-quruculuq işləri sürətlənmiş, küçə və prospektlərdə, məhəllədaxili ərazilərdə abadlıq işləri genişləndirilmişdir. Baharın gəlişi isə Mingəçeviri daha abad, səliqəli və gül-çiçəkli etmişdir. Küçə və meydanlar öz libasını dəyişmiş, yüksəkmərtəbəli binalar müasir görkəm almışdır. Bu işlərdə şəhər sakinləri də yaxından iştirak etmişlər və bu, mingəçevirlilərin Novruz bayramına ən gözəl töhfəsi olmuşdur.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.-19 mart.- S.13.